# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

14-15 (156-157) 15 oktyabr 2020-ci il İctimai-siyasi qəzet


# Qarabağ Azərbaycandır!

## Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində operativ müşavirə keçirilib

Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində olub.

Müdafiə naziri Zakir Həsənov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə operativ müşavirə keçirildi.



## Qələbə!
## Azərbaycan Ordusu güvənc yerimiz və qürur mənbəyimizdir

















AZƏRBAYCAN VETERANI

# Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib



Oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.

AZƏRTAC dövlətimizin başçısının müraciətini təqdim edir.

Prezident İlham Əliyevin xalqa müraciəti

-Əziz həmvətənlər.

Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm.

Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir!

Dörd il bundan əvvəl Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi yenidən qurulmağa başlamışdır. Uğurlu əməliyyat nəticəsində azad edilmiş yüksəkliklər imkan verdi ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə sakinlər qayıtsınlar. Gözəl qəsəbə saldıq. Qəsəbənin açılışında demişdim ki, Cocuq Mərcanlı bizim yenilməz iradəmizin rəmzidir. Cocuq Mərcanlı onu göstərir ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və bizim işğal edilmiş digər torpaqlara qayıdışımız məhz Cocuq Mərcanlıdan başlamışdır. Hesab edirəm ki, bu gün Cəbrayıl rayonunun böyük hissəsinin və Cəbrayıl şəhərinin azad edilməsi xüsusi əhəmiyyət daşıyır.

Bilirsiniz, bir həftədir ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerinə oturdur, düşməni torpaqlarımızdan qovur, canı-qanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaqdır.

Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində - 30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın edib dağıdıblar.

Biz bütün şəhərləri bərpa edəcəyik. Ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik. Bu bölgələrə həyat qayıdacaq. Biz ermənilər tərəfindən bizim tarixi adlarımızı dəyişdirib tarixi saxtalaşdırmaq, eyni zamanda, Azərbaycan xalqının tarixi-mədəni irsini silmək cəhdlərinə son qoyduq. Bizim yaşayış məntəqələrinin tarixi adları bərpa edilir və bərpa ediləcəkdir.

Biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir.

Bu gün cəbrayıllılar, əlbəttə ki, sevinc içindədirlər, necə ki, bütün Azərbaycan xalqı. Dünən bizim qədim yaşayış yerimiz – Suqovuşan qəsəbəmiz işğaldan azad edildi. Bütün Azərbaycan xalqı bu tarixi hadisəni qeyd edirdi, bir-birini təbrik edirdi, göz yaşlarını saxlaya bilmirdi. Bu, sevinc göz yaşlarıdır. 1990-cı illərin əvvəllərində də Azərbaycan göz yaşlarını töküb. Ancaq o, məğlubiyyət göz yaşları idi, o, faciə göz yaşları idi.

Bu gün Azərbaycan xalqı sevinc içindədir. Cəbrayıllılara və bütün Azərbaycan xalqına bu gün azad edilmiş yaşayış məntəqələrinin adlarını sadalamaq istərdim. Bu gün şanlı Azərbaycan Ordusu aşağıdakı yaşayış məntəqələrini azad edib: Cəbrayıl şəhəri, Karxulu kəndi, Şükürbəyli kəndi, Yuxarı Maralyan kəndi, Çərəkən kəndi, Daşkəsən kəndi, Horovlu kəndi, Decal kəndi, Mahmudlu kəndi, Cəfərabad kəndi.

Bu kəndlərin sakinləri, sizə müraciət edirəm, sizin həsrətinizə son qoyulur və bizim digər bütün qaçqın, köçkün soydaşlarımız bilsinlər ki, biz onları da onların dədə-baba torpaqlarına qaytaracağıq. Güc yolu ilə! Biz istəyirdik ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun, səbir göstərirdik. Danışıqlarda həmişə ədalətli mövqedə olmuşuq, bizə mənsub olanı istəmişik. Başqasının torpağında heç vaxt gözümüz olmayıb. Amma demişik ki, bu, bizimdir, xalqımızındır, millətimizindir, bizə qayıtmalıdır, danışıqlar yolu ilə qayıtmalıdır. Amma bu danışıqlar faktiki olaraq münaqişənin dondurulmasına gətirib çıxarmışdır. Yəni, buna hesablanmışdır. Otuz il ərzində danışıqlar gedə bilərmi?! Otuz il ərzində Azərbaycan xalqını belə vəziyyətdə saxlamaq olarmı?! Otuz il ərzində biz ümidlə yaşayırdıq ki, beynəlxalq birlik bu məsələni həll edəcək. Bu məsələnin həlli ilə məşğul olan ölkələr, beynəlxalq təşkilatlar öz sözünü deyəcək. Dünyanın ən ali beynəlxalq orqanı – BMT Təhlükəsizlik Şurası öz qətnamələrinin yerinə yetirilməsi üçün səy göstərəcək. Bu qətnamələr 27 ildir kağız üzərindədir. İyirmi yeddi il ərzində biz bütün dövrlərdə - danışıqların bütün dövrlərində konstruktiv mövqe göstərmişdik, ədalətli mövqe göstərmişdik. Ancaq bunun müqabilində nə gördük? Təcavüzkar daha da azğınlaşıb. Təcavüzkarın tamahı daha da böyüyüb, bizim dədə-baba torpağımıza göz dikib. Nəticədə işğal edilmiş bütün torpaqları qondarma "Dağlıq Qarabağ respublikası"na aid edib, yeni xəritələr dərc edib və bu xəritələrdə işğal edilmiş bütün ərazilər Dağlıq Qarabağ kimi təqdim edilir. Ondan sonra nə oldu? Ondan sonra bəyan etdilər ki, bir qarış torpağı Azərbaycana qaytarmayacağıq.

Biz demişdik ki, axı bu, danışıqlar predmetinə zidd olan məsələdir. Axı danışıqlarda bizim əsas ümidverici məqamımız o idi və orada göstərilirdi ki, işğal edilmiş torpaqlar mərhələli yollarla Azərbaycana qaytarılacaq. Biz də buna razılıq vermişdik ki, mərhələli yollarla qaytarılsın, sülh yolu ilə qaytarılsın. Bir mərhələdə 5 rayon qaytarılsın, ikinci mərhələdə 2 rayon qaytarılsın, sonra azərbaycanlılar Dağlıq Qarabağa qayıtsınlar, Şuşaya qayıtsınlar, ondan sonra Azərbaycan və erməni xalqları birlikdə yaşasınlar, necə ki, vaxtilə biz yaşamışıq. Bu, ədalətli mövqedir. Bu, beynəlxalq hüququn bütün normalarına uyğun olan bir mövqedir. Biz nə istəmişik ki? Bunu istəmişik və buna haqqımız çatırdı və çatır. Amma nə gördük?! Gördük ki, Azərbaycan xalqının iradəsini sındırmaq istəyirlər. Gördük ki, bizə qarşı yeni müharibə açılır, bizi yeni müharibə ilə hədələyirlər. Gördük ki, iyul ayında heç bir səbəb olmadan bizim Tovuz şəhərimiz və digər yaşayış məntəqələrimiz atəşə tutuldu, hərbçilərimiz həlak oldu, mülki vətəndaş həlak oldu. Gördük ki, avqust ayında diversiya qrupu göndərildi və o diversiya qrupunun başçısı zərərsizləşdirildi, saxlanıldı. İndi ifadələr verir, deyir göndərilib ki, terror aktları törətsin. Budurmu danışıqlar prosesinə sadiqlik?! Sonra isə, Ermənistanın baş naziri cəfəng fikirlər ortaya atır, tarixi saxtalaşdırır, öz xalqını, beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. Bir il bundan əvvəl o, "Qarabağ Ermənistandır və nöqtə" deməklə bütün danışıqlar prosesinə zərbə vurdu, onu mənasız etdi. Danışıqların formatını dəyişdirmək cəhdləri – "Qondarma, oyuncaq xunta rejimi ilə Azərbaycan danışıqlar aparmalıdır" sözləri danışıqlar prosesinə tamamilə ziddir. Adekvat cavab aldımı? Mən Minsk qrupunun həmsədr ölkələrinə, həmsədr olan səfirlərə, digər beynəlxalq təşkilatlara, Avropa İttifaqının nümayəndələrinə dəfələrlə demişdim ki, Ermənistana təsir edin, sanksiyalar tətbiq edin, təzyiq edin. Belə olmaz. Əgər güclü təsir olmasa, Ermənistan daha da azğınlaşacaq, daha da quduracaq, yeni iddialar ortaya atacaq. Eşitmədilər məni. Mən istəyirdim bu məsələ sülh yolu ilə həll olunsun. Eşitmədilər. Hesab edirdilər ki, Azərbaycan xalqı və mən – Azərbaycan Prezidenti bu vəziyyətlə barışacağam?! Hesab edirdilər ki, bizim müqəddəs şəhərimiz olan Şuşa erməni tapdağında qalacaq, mən bununla barışacağam?! Azərbaycan xalqının tarixinə zərbə vuran erməni cəlladları ilə biz danışıqlarmı aparmalıyıq? Azərbaycan xalqı təhqir edildi, Şuşada qondarma rejimin başçısı özünə "andiçmə mərasimi" keçirmişdir. Baxım görüm, indi andiçmə mərasimi harada keçiriləcək, yas mərasimini keçirəcək! İndi qaçıb siçan kimi gizlənib. Çıxsın ortalığa! Ermənistanın baş naziri gedib Şuşada, Cıdır düzündə rəqs edir, hesab edir ki, biz bununla barışacağıq?! Səhv edir! Heç vaxt biz bununla barışmayacağıq. Qondarma "Dağlıq Qarabağ respublikası"nın parlamentinin Şuşaya köçürülməsi nə deməkdir?! Yenə də Azərbaycan xalqını təhqir etmək cəhdidir. Cəbrayıla Ermənistandan yeni yolun çəkilməsi nə deməkdir?! O deməkdir ki, orada qanunsuz məskunlaşma aparılacaq. Artıq Livandan, başqa yerlərdən erməniləri gətirirlər, köçürürlər bizim qədim şəhərimizə, Şuşada yerləşdirirlər, televiziyada göstərirlər, beynəlxalq konvensiyaları pozurlar, Cenevrə Konvensiyasını tapdalayırlar. Bunlara söz deyən var?! Tapşırıq vermişəm bütün bizim xarici diplomatik orqanlara – məsələ qaldırın, BMT-də, ATƏT-də, Avropa İttifaqında, başqa təşkilatlara, deyin ki, bu, qanunsuzdur! Qanunsuz məskunlaşma cinayətdir! Buna reaksiya oldu?! Minsk qrupu bir açıqlama verdimi?! Vermədi! Avropa İttifaqı verdimi?! Vermədi! Dedi ki, bu, bizi maraqlandırmır. Maraqlandırmırsa, indi də maraqlandırmasın. İndi nə əl-ayağa düşmüsünüz? İndi nə hoqqalardan çıxırsınız? Azərbaycana qarşı iftiralar irəli sürülür, bəzi ölkələr, Avropa ölkələri bizi ittiham edirlər. Getsinlər güzgüyə baxsınlar. Bu ittihamların heç bir əsası yoxdur ki, kimsə imkan verməz Azərbaycan Dağlıq Qarabağı fəth etsin. Dağlıq Qarabağ bizimdir, bizim torpağımızdır, biz oraya qayıtmalıyıq, qayıdırıq və qayıdacağıq!

Ona görə indiki vəziyyətdə birinci günahkar Ermənistan rəhbərliyidir. Eyni zamanda, bu məsələyə biganə yanaşan və daim Ermənistanın tərəfini saxlayan və bu işğalı əbədi etmək istəyən bəzi ölkələrin dairələridir. Azərbaycan özü bu məsələni həll edir və mən 27 sentyabr hadisələrindən əvvəl Ermənistana demişdim, gəl, təkbətək vuruşaq. Baxaq kim-kimdir! İndi nə oldu? Paşinyan hər gün bir dünya liderinə zəng edir. Hər gün! Mən heç kimə zəng etməmişəm, heç bir liderə zəng etməmişəm. Təmaslarım olub, mənə zəng ediblər. Amma o, adam qalmayıb ki, zəng etməsin, yalvarmasın, emissar göndərməsin, ağlamasın, onların ayağına yıxılmasın. Bax budur bunun sonu. Əgər bizimlə normal dildə danışsaydı, bizim müqəddəs şəhərimizi mundarlamasaydı, əlbəttə, biz ümidlərlə yaşayıb çalışardıq ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun. Amma hər addım təxribat, hər addım təhqir və hesab edir ki, biz bununla barışacağıq?! İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!

Ermənistan rəhbərliyi yaxşı düşünsün, hələ ki, gec deyil. Bizə yeddi şərt irəli sürür. Sən kimsən ki, bizə şərt qoyasan?! İndi baxım görüm nə şərt qoyursan bizə! Yıxılıb diz çöküb yalvarırsan ki, atəşkəs bərpa olunsun. Atəşkəs Ermənistanın baş nazirinin xahişi ilə 2 il ərzində bərpa olunmuşdu. Məndən xahiş etmişdi ki, daxildə vəziyyət ağırdır, oradan-buradan məni sıxırlar, mənə vaxt verin, mən bu məsələni həll edəcəyəm, mən yeni fikirlərlə gəlmişəm. Mən keçmişdə nə olub hamısının üstündən xətt çəkmişəm, imkan verin, vaxt verin. Dedim yaxşı. Nə oldu? Bir ildən sonra çıxış edib deyir ki, "Qarabağ Ermənistandır". İndi desin "Qarabağ Ermənistandır". İndi mənə olan zənglər və zənglər əsnasında gedən söhbətlər əlbəttə ki, konfidensial xarakter daşıyır və bəzi hallarda indi soruşurlar bəs, sizin şərtiniz nədir? Mənim şərtim birdir - çıxsın bizim torpaqlarımızdan, çıxsın, qarşıdurma dayansın. Amma sözdə yox, əməldə. Desin ki, mən Azərbaycanın ərazi bütövlüyünü tanıyıram, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən işğal edilmiş torpaqlardan qoşunlarımızı çıxaracağam, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən Azərbaycan xalqından üzr istəyirəm və desin ki, Qarabağ Ermənistan deyil. Sonuncu şərt budur ki, qrafik versin, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması cədvəli verilsin bizə. Onda biz əlbəttə ki, atəşkəs rejimini bərpa edəcəyik. Halbuki indi şiddətli döyüşlər getdiyi zaman bunu etmək çətindir. Çünki biz dayansaq, onlar dayanmayacaq. Amma hər halda, bunun üzərində işləmək olar. Yoxsa ki, siz dayanın, onlara vaxt verin. Nəyə vaxt verək? Vaxt verək ki, güc toplasınlar? Vaxt verək ki, yenə də adam toplasınlar bizə hücum etsinlər? Bizi belə sadəlövh sayırlar bunlar? Vaxt verin ki, bunlar gəlsinlər danışıqlara. Mən nə lazımdır dedim, vəssalam.

Bu gün Cəbrayılın işğaldan azad edilməsi Ermənistana, onun havadarlarına dərs olmalıdır. Mən hadisələrdən əvvəl demişdim. Orada təxribat törətdi, dərs verdik, dərs olmadı. Burada təxribat törətdi, dərs verdik, dərs olmadı. Nəhayət, bu dəfə təxribat törətdi, dərs verdik, indi dərs oldu.

Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

AZƏRBAYCAN VETERANI



14-15 (156-157) 15 oktyabr 2020-ci il

# Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib

Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.

AZƏRTAC dövlətimizin başçısının müraciətini təqdim edir.

Prezident İlham Əliyevin xalqa
müraciəti

-Əziz həmvətənlər.

Bu gün müzəffər Azərbaycan Ordusu bir neçə yaşayış məntəqəsini işğaldan azad edib. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

İşğaldan azad edilmiş yaşayış məntəqələrinin adlarını sizin diqqətinizə çatdırmaq istərdim: Hadrut qəsəbəsi, Çaylı kəndi, Yuxarı Güzlək kəndi, Gorazıllı kəndi, Qışlaq kəndi, Qaracallı kəndi, Əfəndilər kəndi, Süleymanlı kəndi, Sur kəndi.

Bu kəndlərin və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi tarixi qələbəmizdir. Azərbaycan işğal altında olan torpaqları işğaldan azad edir. Deməli olar ki, hər gün cəbhədən xoş xəbərlər gəlir. Hər gün bizim əsgər və zabitlərimiz döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Eyni zamanda, strateji yüksəklikləri götürərək daha əlverişli mövqelərə sahib olurlar. Beləliklə, əməliyyat planı tam icra edilir, əməliyyat planı müasir döyüş prinsiplərinə əsaslanır. Azərbaycan Ordusu həm maddi-texniki təchizat baxımından, eyni zamanda, döyüş hazırlığı baxımından bu gün döyüş meydanında tam üstünlüyə sahib olubdur.

Bu gün aparılan döyüşlərdə düşmənin hərbi texnikası böyük dərəcədə məhv edilmişdir və eyni zamanda, hərbi qənimət götürülmüşdür. Deyə bilərəm ki, sentyabrın 27-dən bu günə qədər bütövlükdə Ermənistan Ordusuna çox böyük zərbə vuruldu. Mən, sadəcə olaraq, Azərbaycan Ordusu tərəfindən məhv edilmiş və hərbi qənimət kimi götürülmüş Ermənistanın hərbi texnikasının siyahısını sizin diqqətinizə çatdırmaq istərdim. Ermənistanın itkiləri ilə əlaqədar məlumat verirəm: 16 komanda məntəqəsi məhv edildi, 196 tank məhv edildi, 38 BM-21, 1 "Uraqan", 10 özüyeriyən artilleriya qurğusu, - onlardan 8-i "Akasiya", 2-si "Qvozdika", - 36 piyadaların döyüş maşını, 24 artilleriya batareyası, 2 RM və ya hava hücumuna qarşı müdafiə vasitəsi, 2 "S-300" kompleksinin buraxıcı qurğusu, 25 OSA zenit-raket kompleksi, 2 KUB zenit-raket kompleksi, 4 "Repelend" radio-texniki manеə vasitəsi, 136 top, 56 minaatan, 1 TOS-1A odsaçan sursatı, 2 radiolokasiya stansiyası, 1 "Kalçuqa" anteni.

Qənimət kimi götürülmüş hərbi texnika aşağıdakı kimidir: 18 tank, 4 top, 22 piyadaların döyüş maşını, 12 minaatan, 4 UAZ maşını, 1 ekskavator, 27 "İqla" kompleksi, 1 ZİL maşını, 9 QAZ maşını.

Onu da bildirməliyəm ki, düşmənin əlində Azərbaycan Silahlı Qüvvələrinə məxsus olan bir dənə də hərbi texnika yoxdur. Düşmən öz xalqına nağıllar danışır, yalan danışır. Faktları saxtalaşdırır, öz xalqını aldatmaq istəyir, beynəlxalq aləmi aldatmaq istəyir ki, guya onlar hücuma keçirlər, onlar bizim bəzi mövqelərimizi geri alıblar. Hamısı yalandır. Döyüşlərin obyektiv müşahidə mənzərəsi var və istənilən hərbi mütəxəssis görə bilər ki, bu gün Azərbaycan Ordusu döyüş meydanında qələbə əldə edibdir. Azərbaycan Ordusu öz üstünlüyünü göstərir. Azərbaycan əsgər və zabiti yüksək mənəvi psixoloji keyfiyyətlər göstərir, mənəvi ruh göstərir. Çünki biz öz torpağımızda vuruşuruq, öz torpaqlarımızı azad edirik. Ermənistanın əsgərləri işğalçılardır. Döyüş gedən torpaq onların torpağı deyil. Onlar mövqeləri qoyub qaçırlar. Baxmayaraq ki, 30 il ərzində təmas xətti boyunca və bir neçə xətt üzrə dərin eşelonlanmış müdafiə sistemi qurulub. Mühəndis-istehkam qurğuları qurulub. Onları yarmaq, onları keçmək çox çətindir. Bəzi hallarda bəzi istehkamları keçmək üçün bizə bir neçə gün lazım olur. Eyni zamanda, biz bütün işləri elə aparırıq ki, az itkilər verək. Ona görə bəzi hallarda müxtəlif istiqamətlər üzrə mövqelərimizdə möhkəmlənib, ondan sonra yeni əməliyyat üçün hazırlıq işləri də görürük ki, maksimum nəticə, minimum itki olsun.

Bu gün işğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün Azərbaycan əsgərləri bizim işğal edilmiş torpaqlarda ermənilərin qazdıqları səngərlərdə keşik çəkirlər - onlar bizim yox, biz onların səngərlərində, biz onların postlarında, biz onların tanklarında. Qənimət kimi götürülmüş o hərbi texnikadan indi biz istifadə edirik - 18 tank. Onların tankları indi döyüş meydanında onlara qarşı vuruşur. Budur Azərbaycan Ordusunun üstünlüyü, bizim üstünlüyümüz. Bu gün açıq informasiya məkanında, internetdə göstərilir, necə dəqiq, sərrast atəşlərlə düşmənin canlı texnikası məhv edilir.

Düşmən panikadadır, düşmən isterikaya qapılıb. Düşmən ölkənin rəhbərliyi tamamilə özünü itirmiş vəziyyətdədir. Müxtəlif ölkələrə, müxtəlif ölkələrin dövlət-hökumət başçılarına müntəzəm olaraq zəng edir, dəfələrlə, gündə bir neçə dəfə yardım istəyir, imdad diləyir, yalvarır. Onların ayağının altına yıxılır. Özünü alçaldır ki, gəlin, bizi xilas edin. Onların xilasının yeganə yolu budur ki, torpaqlarımızdan çıxsınlar. Biz dəfələrlə bunu demişik, öz xoşunuzla çıxın bizim torpaqlarımızdan. BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirin, yoxsa, peşman olacaqsınız. Hesab edirsiniz ki, Azərbaycan bu vəziyyətlə barışacaq? Barışmayacaq, dəfələrlə demişəm. Hesab edirdiniz ki, Azərbaycan xalqı bu təhqirlərlə barışacaq? Barışmayacaq, dəfələrlə demişəm. Amma bizim torpaqlarımızda oturub, bizim müqəddəs torpağımızı zəhərləyib sonra da bizə qarşı iddia qaldırasan - qudurğanlığın dərəcəsinə baxın. Biz onları yerinə oturtduq. Biz onlara yerlərini göstərdik. Biz onları elə qovuruq ki, onlar bu sprinti heç vaxt yaddan çıxarmayacaqlar.



Bu gün bütün cəbhə boyu döyüşlər gedir. Azərbaycan bütün istiqamətlər üzrə mövqelərini möhkəmləndirir və biz işğalçını, təcavüzkarı sülhə məcbur edirik. Bu əməliyyatın əsas məqsədi də budur. Biz onlara göstərdik ki, döyüş meydanında da, beynəlxalq müstəvidə də, siyasi meydanlarda da biz qalib gəlirik. Onlar bizim gücümüzü gördülər, bizim iradəmizi gördülər. Onlar gördülər ki, dünyada heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Kimə yalvarırsan yalvar, kimin ayağının altına yıxılırsan yıxıl, kimin dabanlarını yalayırsan yala, heç kim bizə təsir edə bilməz! Biz haqq yolundayıq, biz qalib gəlirik, biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik!

Amma işğalçıya bəlkə də sonuncu dəfə şans veririk ki, çıxın bizim torpaqlarımızdan. Çıxın, öhdəlik götürün, danışıqlara qayıdın, danışıqların formatına qayıdın. Yoxsa, Ermənistanın baş naziri özünü nə hesab edir? Bizimlə bu tərzdə danışmaqmı olar? İndi biz ona yerini göstərdik. "Qarabağ Ermənistandır" deməklə Qarabağ heç vaxt Ermənistan olmayacaq. İndi görüm necə deyir "Qarabağ Ermənistandır". Səsini belə çıxara bilmir.

İndi məcbur olub onların xarici işlər naziri Moskvaya danışıqlara gəlib. Gəlsin, orada desin "Qarabağ Ermənistandır". Əgər belə bir şey desə, heç bir danışıqlardan söhbət gedə bilməz. Mən bunu demişəm, heç kim bizi məcbur edə bilməz. Deyirdi ki, biz kriminal "Dağlıq Qarabağ respublikası"nın quldur başçısı ilə danışıqlar aparmalıyıq. Biz heç vaxt buna razı ola bilmərik və bu heç vaxt olmayacaq. Ona görə, dünən və srağagün siyasi müstəvidə baş vermiş hadisələr onu göstərir ki, Ermənistan rəhbərliyi nəhayət başından böyük zərbə alandan sonra dərk etməyə başladı ki, o ancaq bizim şərtlərlə oturub duracaq. Biz nə desək, o da olacaq. Şans veririk ki, danışıqlar yolu ilə, sülh yolu ilə torpağımızdan çıxsın. Onsuz da biz bu torpaqlara qayıdacağıq. Onsuz da biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bütün dünya bunu gördü, o cümlədən Ermənistan bunu gördü. Biz istəyirik ki, qan tökülməsin. Biz istəyirik ki, şəhidlər olmasın. Biz öz torpaqlarımızı istəyirik. Çıxın gedin bizim torpağımızdan, rədd olun bizim torpağımızdan! Gedin öz ölkənizdə yaşayın. Amma biz torpağımızı geri alacağıq. Ona görə bu tarixi şansı onlar qaçırmamalıdır.

Bu gün Moskvada keçiriləcək görüş, hesab edirəm ki, bir çox şeylərə aydınlıq gətirəcək. Onlar baza prinsiplərini qəbul etməlidirlər. Halbuki Paşinyan demişdi ki, o, onları qəbul etmir. Demişdi ki, Azərbaycana bir qarış torpaq verməyəcəyəm. Nə oldu bəs?! Gəl tut o işğal edilmiş torpaqları. Bəs, verməyəcəkdin? Nə oldu verdin? Nə oldu qaçdın? İndi gedirsən onun-bunun dabanını yalaya-yalaya, özünü alçalda-alçalda öz xalqını alçaldırsan. Öz ölkəni sıfıra bərabər etmisən. Demişdi ki, verməyəcəkdi bu torpaqları. Kimdir səndən soruşan, verəcəksən ya verməyəcəksən?! Gəldik götürdük, vəssalam. Götürəcəyik, nə qədər lazımdır, istəsək artıqlaması ilə. Necə ki, iyul ayında götürə bilərdik. Mən bunu demişdim. İyul ayında biz rahatlıqla Ermənistan ərazisinə keçə bilərdik, orada da torpaqları zəbt edə bilərdik. Heç kim bizim qabağımızı ala bilməzdi. Bu döyüşlər onu göstərir. Eləmədik bunu, qoymadım mən. Halbuki bizim hərbçilərimiz artıq hazır idi buna. Qoymadım. Çünki siyasi iradə var. Biz qanunlar çərçivəsində fəaliyyət göstəririk. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Amma öz torpağımızı heç kimə verməyəcəyik. Bəs, nə oldu, Paşinyan? Deyirdin ki, "Dağlıq Qarabağ respublikası" o cümlədən işğal edilmiş bütün torpaqları əhatə edir. Bəs, gəl müdafiə et bunları. Niyə qaçırsan Moskvaya? Niyə zəng vurursan, dünya liderlərinin beynini xarab edirsən? Daha kim qaldı ki, zəng etməsin. Kim qaldı ki, zəhləsini tökməsin. Bir məsləhət verərdim ki, bəlkə şamanlara zəng etsin. Onlar ona kömək etsin. Ya da ki, hansısa uzaq adada yaşayan bir qəbilə başçısına zəng etsin, o, onun canını qurtarsın. Necə deyərlər, lətifə personajına çevrilib. Açın, sosial şəbəkələrə baxın, lağa qoyurlar, ələ salırlar, lətifələr qoşurlar. Öz ölkəsini bu qədər rəzil edən, bəlkə də dünya miqyasında ikinci adam olmayıb. Nəyə görə? Çünki gəlib başqasının torpağında oturub, o torpaqdan çıxa bilmir.

Ona görə mən Azərbaycan xalqına üz tutub deyirəm, biz torpaqlarımızı geri alacağıq. Mən xatırlayıram, Dağlıq Qarabağda qanunsuz oturan və oradan çıxarılacaq dəstə başçısı Şuşa şəhərində özünə "andiçmə" mərasimi keçirmişdir. O vaxt bu Azərbaycan cəmiyyətində böyük rezonans yaratdı, yəni, çox böyük təsir etdi. Biz bunu təhqir kimi qəbul etdik - biz hamımız, istisnasız. Yadımdadır, mənə də çağırışlar olmuşdur ki, biz buna imkan verməməliyik, biz oranı bombalamalıyıq, oranı dağıtmalıyıq. Əlbəttə ki, mən buna gedə bilməzdim. Çünki bizim müharibəmiz mülki vətəndaşlarla deyil. Ermənistandan fərqli olaraq, biz mülki vətəndaşları atəşə tutmuruq. Ancaq biz bunu unutmamışıq. İndi getsin onun and içdiyi mərasimin keçirildiyi binaya baxsın. Nə gündədir o!

Biz nəyi nə vaxt edəcəyimizi yaxşı bilirik. Ona görə də bu gün bizim uğurlu əməliyyatımız böyük nəticələrə gətirib çıxardı. Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Azərbaycan xalqı mənə inanır. Mən də bu inama arxalanaraq bütün lazımi tədbirləri görürəm, ölkəmizi inamla idarə edirəm, bütün sahələrdə, o cümlədən hərbi quruculuq sahəsində.

Bir məsələyə də toxunmaq istəyirəm. Azərbaycan xalqı da bunu vasitəçilərdən, bəzi beynəlxalq təşkilatların rəhbərlərindən dəfələrlə eşidib ki, bu münaqişənin hərbi həlli yoxdur. Mən isə demişdim ki, bu tezislə razı deyiləm və mən haqlı çıxdım, mən! Otuz ilə yaxındır danışıqlar aparılır. Bir məsələ yerindən tərpəndi? Bir santimetr torpaq bizə danışıqlar yolu ilə verildi? Təcavüzkarı məcbur etdilərmi ki, bizim torpağımızdan çıxsın, BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirsin? Yox. Bəs, bu məsələ indi necə həll olunur? Bu, hərbi yol deyilmi? Məhz hərbi yolla bu məsələ həll olunur. Hərbi, ondan sonra siyasi. Bu əməliyyat olmasaydı, biz təcavüzkara lazımi zərbələr endirməsəydik, onların dərsini verməsəydik, indi o qaçardımı Moskvaya danışıqlar aparmaq üçün?! Oturacaqdı özündən razı, deyəcəkdi ki, torpaqları vermirik. Biz məcbur etdik onları. Biz onları elə günə saldıq ki, indi gizlənməyə deşik axtarırlar, tapa bilmirlər. Oturublar, siçan kimi ağzına su alıb susurlar. Bəs, hanı sənin hikkən?! Hanı sənin təkəbbürün?! Hanı sənin "qəhrəmanlığın"?! Deyirdin "Qarabağ Ermənistandır". Qarabağ Azərbaycandır. Bunu hamı bilməlidir, o cümlədən bu gün Ermənistanın başında oturanlar da bilməlidir. Mən onlara bir daha deyirəm, əgər Moskva danışıqlarından sonra yenə də saxtakarlıq edəcəklərsə, özləri peşman olacaqlar. Biz torpaqlarımızı geri alacağıq - sülh yolu ilə, ya da ki, müharibə yolu ilə. Birmənalı! Biz istəyirik ki, sülh yolu ilə bunu təşkil edək, sülh yolu ilə bunu alaq. Ermənistana axırıncı şans veririk, axırıncı şans! Heç kimə ümid bağlamasın. Heç kim onlara kömək etməyəcək. Bizim qabağımızda Ermənistan acizdir. Bizim qabağımızda Ermənistan diz çöküb. Bizim şəhidlərimizin ruhu qarşısında biz onları diz çökdürmüşük. Şəhidlərimizin qanı yerdə qalmayıb. Mən dəfələrlə şəhid ailələrinin nümayəndələri ilə, şəhid valideynləri ilə görüşlərdə demişdim ki, biz onların qisasını alacağıq. Bizim şəhidlərimizin qanı yerdə qalmayacaq və qalmır. Biz qan istəmirik. Biz istəyirik torpaqlarımız bizə verilsin. Verilsin, uzatmasınlar məsələni. Status-kvo deyilən məsələ yoxdur, qurtardı getdi. Status-kvo belə olmalıdır, elə olmalıdır. Mən dəyişdirdim status–kvonu, dəyişdirdim! Bax, orada, döyüş meydanında. Yoxdur status-kvo. Təmas xətti, yoxdur təmas xətti. Yarmışıq onu. Onlar 30 il idi ki, qururdular bu təmas xəttini. Özü də o bölgənin relyefi təbii istehkamdır. Biz aşağıdan yuxarı gedirik. Özü də 30 il ərzində orada beton istehkamlar qurulub. Yarıb keçmişik. Azərbaycan əsgərinin qabağında heç kim heç nə edə bilməz. Biz bu gün o təmas xəttini darmadağın etdik. Yoxdur təmas xətti. İndi deyirlər yeni təmas xətti olacaq. Olmayacaq! Biz torpaqlarımızı geri alacağıq. Hansı təmas xəttindən söhbət gedə bilər?! Yoxdur bu, biz dağıtmışıq, biz etmişik, iradə göstərmişik, güc göstərmişik, xalqımızın iradəsinə arxalanmışıq və bu gün qələbə çalırıq. Tarixi qələbə çalırıq! Bu qələbə Azərbaycan xalqının əldə etdiyi qələbələr arasında ən parlaq qələbədir. Gələcəkdə bu qələbələr davam edəcək. Biz torpaqlarımızı azad edəcəyik, ərazi bütövlüyümüzü bərpa edəcəyik! Düşməni ondan sonra da qovacağıq. Mən bilirəm ki, Azərbaycan xalqı mənim bu sözlərimi bəyənibdir. Qovacağıq onları axıra qədər. Bayrağımız işğal edilmiş bütün torpaqlarda qaldırılacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək. Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!

# General-polkovnik Tofiq Ağahüseynov: Azərbaycan əsgərinin ən güclü silahı onun sarsılmaz vətənpərvərlik ruhudur

Sentyabrın 27-də səhər saatlarında Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması barədə qərar verilib. Şəxsi heyət və tank bölmələrimiz raket-artilleriya qoşunlarının bölmələri, cəbhə aviasiyası və pilotsuz uçuş aparatlarının dəstəyi ilə Ermənistan silahlı qüvvələrinin ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsini, hərbi obyektlərini və döyüş texnikasını aşkarlayaraq məhv ediblər. Ümumiyyətlə, Ermənistan sistemli şəkildə cəbhə bölgəsində təxribatlar törədir. Baş verənlərə görə bütün məsuliyyət işğalçı Ermənistanın üzərinə düşür. Cəbhədə baş verənlər Azərbaycan Ordusunun, Prezident, Ali Baş Komandan İlham Əliyevin və xalqımızın böyük nailiyyətidir.

Respublika Veteranlar Təşkilatından AZƏRTAC-a bildiriblər ki, bu barədə Təşkilatın sədri general-polkovnik Tofiq Ağahüseynov deyib.

O qeyd edib ki, hazırda Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Bu gün güclü maddi-texniki baza və müasir silah-sursatla təmin olunan ordumuz məhz Prezident, Ali Baş Komandan İlham Əliyevin iradəsi və qayğısı sayəsində formalaşıb. İndi biz ordumuzda vətənpərvər, cəsur və mərd oğulların xidmət etdiyinin daim şahidi oluruq.

Ordumuzu məğlubedilməz edən "Öncə Vətəndir!" deyən oğullarımızdır. Ordumuzu yenilməz edən həm də onun güclü silah-sursata və texnikaya sahib olmasıdır. Azərbaycan əsgərinin ən güclü silahı onun vətənpərvərliyidir. Çünki əsgərlərimizin hərbi-vətənpərvərlik ruhu sarsılmazdır. Azərbaycan Ordusunun uğurlu əməliyyatları nəticəsində düşmən əsgərləri artıq silahlarını döyüş meydanında qoyub qaçırlar.

Tofiq Ağahüseynov bildirib ki, bu gün Azərbaycan Ordusunun cəbhədəki uğurları, düşmənlə təmas xəttində vətənpərvər əsgərlərimizin göstərdiyi döyüş şücaəti, qətiyyəti, məğrurluğu hər birimizə sevinc hissi yaşadır. Artıq Azərbaycan xalqının illərdir gözlədiyi Böyük Qələbənin işartısı görünür. Hər kəsdə ruh yüksəkliyi, orduya inam, qələbəyə əminlik hissi sarsılmaz ordumuzu qələbəyə ruhlandırır. Hamı inanır ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz tez bir zamanda yağı düşməni doğma torpaqlarımızdan qovacaq, bizə zəfər bayramı yaşadacaq.



"İndiki həssas məqamda Azərbaycan xalqını, cəmiyyətin bütün təbəqələrini fikir ayrılıqlarını bir kənara qoyaraq Ali Baş Komandanın ətrafında sıx birləşməyə çağırıram. Biz birlikdə güclüyük. Bu gün çoxsaylı veteranlarımız da Prezident İlham Əliyevin əmrlərinə hər an müntəzirdir. İşğal altındakı torpaqlarımızın azad olunmasında ölümə getməyə tərəddüd etməyən veteran ordusu Vətənimiz uğrunda döyüşməyə hazırdır", - deyə general-polkovnik T.Ağahüseynov vurğulayıb.

## General-polkovnik Tofiq Ağahüseynov: Azərbaycan Ordusunun cəbhədəki uğurları hər birimizə qürur və sevinc hissi yaşadır

Prezident İlham Əliyev ötən gün müzəffər Azərbaycan Ordusunun bir neçə yaşayış məntəqəsini işğaldan azad etməsi ilə bağlı xoş müjdəsi münasibətilə xalqımızı təbrik edirəm. Dövlətimizin başçısı, Ali Baş Komandanımız İlham Əliyevin qeyd etdiyi kimi, Hadrut qəsəbəsinin və Çaylı, Yuxarı Güzlək, Gorazıllı, Qışlaq, Qaracalı, Əfəndilər, Süleymanlı, Sur kəndlərinin işğaldan azad olunması tarixi qələbəmizdir.

Bu fikri Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov AZƏRTAC-a açıqlamasında deyib.

T.Ağahüseynov qeyd edib ki, Azərbaycan Ordusunun cəbhədəki uğurları əsgərlərimizin göstərdiyi döyüş şücaəti, qətiyyəti, məğrurluğu hər birimizə sevinc hissi yaşadır. Hazırda Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Bu gün güclü maddi-texniki baza və müasir silah-sursatla təmin olunan ordumuz məhz Prezident, Ali Baş Komandan İlham Əliyevin iradəsi və qayğısı sayəsində formalaşıb. İndi biz ordumuzda vətənpərvər, cəsur və mərd oğulların xidmət etdiyinin şahidi oluruq. Azərbaycan əsgərinin ən güclü silahı onun vətənpərvərliyidir. Əsgərlərimizin hərbi-vətənpərvərlik ruhu sarsılmazdır. Bu, hər kəsdə ruh yüksəkliyi, orduya inam yaradır. Ümumiyyətlə, cəbhədəki qələbələr Azərbaycan Ordusunun, Prezident, Ali Baş Komandan İlham Əliyevin və xalqımızın böyük nailiyyətidir.

Tofiq Ağahüseynov bildirib ki, artıq humanitar məqsədlərlə Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi və onun meyarlarına uyğun olaraq, hərbi əsirlərin, digər saxlanılan şəxslərin və ölənlərin cəsədlərinin dəyişdirilməsi üçün atəşkəs elan olunub. Beynəlxalq qaydalar əsasən hər müharibədə cəsəd və əsirlərin dəyişdirilməsi üçün humanitar atəşkəs qəbul edilir.

"Azərbaycanın mövqeyi bəllidir. Xalqımızın dövlətimizə və Prezidentimizə güvəni tamdır. Oktyabrın 9-da Prezidentimiz Xarici İşlər nazirlərinin Moskvadakı görüşü ərəfəsində növbəti tarixi çıxışını edərək xalqımıza hər şeyi açıq şəkildə bəyan etdi: Biz bu torpaqlara qayıdacaq və ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Veteranlarımızın və cəbhədə hərbçilərimizin əhval-ruhiyyəsi yüksəkdir. Tarixi zəfərlərlə dolu bu xalqa yalnız və yalnız Qələbə yaraşır. Qələbə bizimlədir. Mən əminəm ki, bütün ərazilərimiz işğaldan azad olunacaq", - deyə general-polkovnik T.Ağahüseynov vurğulayıb.

## Azərbaycan QHT-ləri beynəlxalq ictimaiyyətə müraciət ünvanlayıb

Azərbaycan QHT-ləri Ermənis-tanın Gəncəyə qarşı törətdiyi müharibə cinayəti ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət ünvanlayıb.

AZƏRTAC xəbər verir ki, müraciətdə deyilir: "Bu il sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələri Azərbaycanın mülki əhalisini və mülki obyektlərini artilleriya və raket atəşinə tutmaqda davam edir. Oktyabrın 4-də isə Ermənistan beynəlxalq humanitar hüququn və hərbin bütün qaydalarını növbəti dəfə kobud şəkildə pozaraq bir daha öz acizliyini nümayiş etdirməklə münaqişə zonasından uzaqda yerləşən 500 min əhalisi olan tarixi Gəncə şəhərini raket atəşinə tutub və nəticədə bir nəfər həlak olub, 4 nəfər yaralanmış və tarixi abidələr dağıdılıb. Ermənistan silahlı qüvvələri Gəncə şəhərinə raket zərbəsi endirən zaman beynəlxalq konvensiyalarla qəti qadağan edilən kasetli bombalardan istifadə edib.

Bu günə olan statistik məlumatlara görə, Ermənistan Azərbaycanın 10-dan çox rayon və şəhərlərinə endirdiyi raket zərbələri nəticəsində 23 mülki şəxs qətlə yetirilib və 76 nəfər yaralanıb, dövlət və özəl mülkiyyətə ciddi ziyan vurulub.

Ermənistanın mülki əhalini bilərəkdən hədəfə almaqda məqsədi müharibənin coğrafiyasını genişləndirmək, diqqəti işğal etdiyi Dağlıq Qarabağ və onun ətrafında olan 7 rayondan yayındırmaq və 3-cü ölkəni münaqişəyə cəlb etməkdən ibarətdir.

Biz, Azərbaycan QHT-ləri, dərin narahatlıq hissi ilə beynəlxalq ictimaiyyətin diqqətini Ermənistanın siyasi və hərbi rəhbərliyinin insanlıq əleyhinə törətdiyi cinayətlərə cəlb edir və beynəlxalq humanitar qanunun, xüsusilə 1949-cu ildə qəbul edilmiş Cenevrə Konvensiyasının Ermənistan tərəfindən kobud şəkildə pozulduğunu bildiririk.

Biz bu müraciətə imza atan Azərbaycanda fəaliyyət göstərən yüzlərlə QHT adından dünyada fəaliyyət göstərən hüquq müdafiə təşkilatlarına, QHT-lərə, media təmsilçilərinə, parlament üzvlərinə və hökumətlərə müraciət edir, Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı törədiyi hərbi cinayətlərə etiraz etməyə və bu cinayət əməllərini qəti şəkildə pisləməyə çağırırıq.

Sonda onu da bildirmək istəyirik ki, Azərbaycana qarşı törətdiyi hərbi cinayətlərə, işğala və təcavüz aktına, xüsusilə BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini yerinə yetirmədiyinə görə Ermənistanın indiyə kimi cəzasız qalması, bu gün onun daha təhlükəli və qəddar cinayət törətməsinə səbəb olur".

## Hərbiyönümlü QHT-lərin bəyanatı

Azərbaycan 27 sentyabr tarixinə böyük coşqu ilə, illərdir gözlədiyimiz müjdəli xəbərlərin veriləcəyi günlərin başlanğıcı tarixi olaraq başladı. Azərbaycan Ordusu düşmən qüvvələrinin səhər saatlarından başlayan təxribatına sərt reaksiyaya verərək əks-hücum həmləsiylə düşmənə sarsıdıcı zərbələr endirməkdə davam edir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər hərbiyönümlü QHT-lərin bəyanatında yer alıb.

Bəyanatda deyilir: "Son günlər düşmənin cəbhəboyu ərazilərdə aktivləşməsi, bütün qüvvələrini təmas xəttinə cəmləyərək hücuma hazırlaşdığı hər kəsə məlum idi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev son çıxışlarında düşmən qüvvələrin hücuma hazırlaşması barədə kəşfiyyat məlumatlarının olduğunu deyərək, Azərbaycan Ordusunun bu hücumları dəf etmək iqtidarında olduğunu, özümüzü əzmkarlıqla, qətiyyətli şəkildə müdafiə edəcəyimizi bəyan etmişdir.

Biz hərbiyönümlü QHT-lər olaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin apardığı haqq işini dəstəkləyir, bütün gücümüzlə, canımız-qanımızla onun və şanlı ordumuzun yanında olduğumuzu bəyan edirik!

Hərbiyönümlü QHT-lər olaraq bütün cəmiy-yətimizə, sosial şəbəkə istifadəçilərinə, cəbhəboyu ərazilərdə yaşayan insanlara səslənərək bildiririk ki, müharibənin, hərbi əməliyyatların özünəməxsusluğu, öz qanunları var. Hər bir vətəndaşımız bu qanunlara tabe olmağa borcludur. Hamını düşmənin dezinformasiyalarına uymayaraq yalnız dövlət qurumlarının yaydığı məlumatlara inanmağa və istinad etməyə çağırırıq.

Azərbaycan Respublikasının Prezidenti xalqa müraciətində: "Bu işğala son qoyulmalıdır və qoyulacaq! Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycanındır!" dedi.

Hərbiyönümlü QHT-lər olaraq vahid komandanlıqla idarə olunan Silahlı Qüvvələrimizin QƏLƏBƏ əzminə bütün varlığımızla inandığımızı, müsəlləh əsgər olaraq hər an döyüşlərə hazır olduğumuzu QƏLƏBƏYƏ gedən müqəddəs yolda birgə olduğumuzu bəyan edirik!

Biz Birlikdə Güclüyük!

## Prezident İlham Əliyev: Ermənistanın bu alçaq əməlləri Azərbaycan xalqının iradəsini heç vaxt sındıra bilməz

**Ermənistanın Gəncəyə raket hücumu Rusiyanın vasitəçiliyi ilə aparılmış danışıqlara hörmətsizlik və erməni faşizminin növbəti təzahürüdür.**

**AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev "Twitter" hesabında yazıb.**

**Dövlətimizin başçısı qeyd edib ki, bu alçaq əməllər Azərbaycan xalqının iradəsini heç vaxt sındıra bilməz!**

# Hikmət Hacıyev: Gəncənin raket atəşinə tutulması Ermənistanın dünya ictimaiyyətinə qarşı hörmətsizliyi kimi qiymətləndirilməlidir

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov oktyabrın 11-də Ermənistan silahlı qüvvələrinin Gəncəni raket atəşinə tutması nəticəsində çoxmənzilli yaşayış binasının dağıldığı ərazidə olublar.

AZƏRTAC-ın hadisə yerində olan müxbiri xəbər verir ki, Prezidentin köməkçisi Hikmət Hacıyev yerli və xarici KİV-lərin nümayəndələrinin suallarını cavablandırarkən düşmənin humanitar atəşkəs rejiminin tələblərini kobudcasına pozaraq təkcə Gəncəni deyil, Mingəçevir və digər yaşayış məntəqələrimizi də ağır artilleriya və raket atəşinə tutduğunu bildirərək deyib: "Bu, Ermənistanın dünya ictimaiyyətinə, o cümlədən Rusiya Federasiyasına qarşı hörmətsizliyi kimi qiymətləndirilməlidir. Rusiya Federasiyasının bilavasitə vasitəçiliyi ilə humanitar əsaslarla atəşkəsə dair fikirlər ortaya qoyulduğu halda Azərbaycan xalqına qarşı Ermənistan tərəfindən bu vandallıq və soyqırımı aktı həyata keçirildi. Beynəlxalq ictimaiyyət bu hadisələrə lazımi qiymət verməlidir".

Xatırladaq ki, Ermənistan silahlı qüvvələrinin oktyabrın 11-də gecə saat 02 radələrində cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması nəticəsində 3-ü qadın olmaqla 7 nəfər həlak olub, 16



qadın, 6-sı azyaşlı olmaqla 34 nəfər yaralanıb. Həmçinin 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib.

**Baş Prokurorluq: Ermənistan silahlı qüvvələrinin Gəncədə yaşayış binalarını raket atəşinə tutması nəticəsində ölənlərin sayı 9-a çatıb**

Ermənistan silahlı qüvvələrinin 11.10.2020-ci il tarixdə gecə saat 02 radələrində cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çox mənzilli yaşayış binalarını raket atəşinə tutması nəticəsində 4-ü qadın olmaqla 9 nəfər həlak olub.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətindən məlumat verilib.




## Düşmənin dinc əhalinin yaşadığı əraziyə "Toçka-U" raketi atması işğalçı ölkənin hərbi-siyasi rəhbərliyinin cinayətkar xislətinin göstəricisidir

Humanitar atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan ordusu işğalçı ölkənin hərbi-siyasi rəhbərliyinin göstərişi ilə Azərbaycanın mülki əhalisini ağır artilleriya və raket sistemlərindən atəşə tutmaqda davam edir.

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri xəbər verir ki, erməni faşistləri cəbhənin Füzuli-Cəbrayıl istiqamətində dinc əhalinin yaşadığı əraziyə "Toçka-U" raketi atıblar. Xoşbəxtlikdən raket partlamayıb.





Raketin partlamayan hissəsi Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) əməkdaşları tərəfindən aşkarlanaraq təhlükəsizlik qaydalarına uyğun şəkildə mühafizə zolağına alınıb.

ANAMA-nın əməkdaşı Azər Hüseynov bildirib ki, sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələri Azərbaycanın dinc əhalinin sıx yaşadığı məntəqələri, şəhər və kəndləri ağır artilleriya və raket atəşinə tutur. Bununla əlaqədar Agentliyin müvafiq qüvvələri düşmənin atəşinə məruz qalan yaşayış məntəqələrinə cəlb olunub. Hazırda ərazilərdə 25 qrup çalışır. Düşmənin atdığı mərmilərin partlamayanlarının və zərərli hissələrinin aşkarlanaraq zərərsizləşdirilməsi üçün lazımi tədbirlər görülür. İndiyədək ANAMA-ya 400 çağırış daxil olub və 70-dən çox partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Bu gün də düşmən tərəfi dinc əhalini atəşə tutmaqda davam edir. Araşdırmalar zamanı ərazidə "Toçka-U" raketi (9M79M) aşkarlanıb. Olduqca təhlükəli silah hesab edilən bu raket kimyəvi başlıqlar, həmçinin kaset bombalar və digər başlıqlar daşımaqla ümumi çəkisi 2010 kiloqrama bərabərdir. Düşmənin belə təhlükəli raketi dinc əhalinin yaşadığı ərazilərə atması işğalçı ölkənin hərbi-siyasi rəhbərliyinin cinayətkar xislətinin əyani təsdiqidir.

# İstefada olan astaralı polkovnik-leytenant: Ordumuzun cəbhədə qazandığı uğurlar Vətənə olan sevginin nəticəsidir



1992-1993-cü illərdə Qarabağ müharibəsində Füzuli və Cəbrayıl rayonları istiqamətində gedən döyüşlərdə iştirak etmişəm. Həmin dövrdə vahid komandanlıq tərəfindən idarə olunmayan ordu birləşmələrimiz pərakəndə halda idi. Bunun nəticəsində torpaqlarımız mənfur düşmənlərimiz tərəfindən işğal olundu.

Bu sözləri Astara Rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, Qarabağ müharibəsi veteranı, istefada olan polkovnik-leytenant Rafiq Əliyev AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində bildirib.

Otuz ilə yaxındır ki, Azərbaycan torpaqlarının düşmən tapdağı altında olduğunu vurğulayan R.Əliyev, bu gün Azərbaycanın qüdrətli, nizamlı ordusunun ən müasir döyüş texnikaları ilə təchiz olunduğunu diqqətə çatdırıb.

Ehtiyatda olan polkovnik-leytenant daha sonra deyib: "Azərbaycan xalqı sülhsevər xalqdır. Biz müharibə istəmirik. Lakin torpaqlarımızı da heç kimə verən deyilik.

BMT Təhlükəsizlik Şurasının işğal olunmuş Azərbaycan torpaqlarının qeyri-şərtsiz qaytarılması barədə 4 qətnaməsi indiyədək icra olunmayıb. Bunun nəticəsidir ki, erməni separatçıları cəbhə bölgəsində vaxtaşırı təxribatlar törədir, mülki əhaliyə hücumlar edirlər.

Hər şeyin bir hüdudu var. Artıq Azərbaycan xalqının səbri tükənib. Ordumuz Vətən torpaqları uğrunda haqq döyüşə başlayıb.

Azərbaycan xalqı qəhrəman xalqdır. Bu torpaq Babəklər, Cavanşirlər, Həzilər, Mübarizlər yetişdirib. Əhali arasında böyük ruh yüksəkliyi, qələbə əzmi var. Gənclərimiz böyük həvəslə könüllü olaraq cəbhəyə yola düşürlər. Müzəffər ordumuzun cəbhədə qazandığı uğurlar məhz bu ruh yüksəkliyinin, Vətənə olan sevginin nəticəsidir. Biz haqq-ədalət yolundayıq. Ona görə də Qələbə bizimlədir".

# Cəbhəboyu rayonlarda top mərmiləri, raketlər, patronlar və mərmi qalıqları aşkarlanıb

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağdam, Ağcabədi, Bərdə, Beyləqan, Füzuli, Goranboy, Tərtər rayonları və Gəncə şəhəri ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən 60 müraciət daxil olub.





ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 60 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağdam rayonunun Əfətli, Sarıcalı kəndləri, Ergi, Quzanlı, 4 yol qəsəbələri, Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli, Minəxorlu, Muğanlı, Arazbar kəndləri, Bərdə rayonunun Əmirli və Meşəçilik kəndləri, Beyləqan rayonunun Şəfəq kəndi və A.Hacıyev küçəsi, Füzuli rayonunun Arayatlı, Kərimbəyli, Əhmədalılar kəndləri, Zobcuq qəsəbəsi və Horadiz şəhəri, Goranboy rayonunun Qaraçinar, Rəhimli, Şahməmmədli kəndləri, Qızılhacılı qəsəbəsi və E.Süleymanov küçəsi, Tərtər rayonunun Həsənli, Ələsgərli və Dəmirçilər kəndlərinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 51 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 152 mm-lik top mərmisi (OF-540), 1 ədəd 122 mm-lik top mərmisi (D-4), 2 ədəd 300 mm-lik raket (9M528), 33 ədəd patron (30 ədəd 5.45 mm-lik və 3 ədəd 7.62 mm-lik) və 9 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Həmçinin agentliyin partlayış qrupu tərəfindən 29 ədəd bombacıq partlayış yolu ilə zərərsizləşdirilib.

# Düşmən təcili tibbi yardım avtomobillərini də atəşə tutur

Cəbhə boyunca Azərbaycan Ordusuna məğlub olan Ermənistan silahlıları yaşayış məntəqələrini, mülki obyektləri, dinc sakinləri, hətta təcili tibbi yardım avtomobillərini atəşə tutmaqda davam edir.

AZƏRTAC xəbər verir ki, oktyabrın 4-də yaralıları daşı-




yan təcili tibbi yardım avtomobili Ağcabədi rayonunun Sarıcallı kəndi ərazisində düşmən artilleriyasının hücumuna məruz qalıb. Sürücü Əliyev Yasər Alik oğlu və həkim anesterioloq Babayev Tural Akif oğlu ağır bədən xəsarətləri alıblar.

Oktyabrın 6-da isə Tərtər rayonunun Azad Qaraqoyunlu kəndi ərazisində yaralıları daşıyan təcili tibbi yardım avtomobili düşmənin atəşinə tuş gəlib. Hadisə nəticəsində feldşer Əhmədli Azər Eldar oğlu və sürücü Musayev Zəfər Həsən oğlu ağır bədən xəsarətləri alıblar.

# Gecə ərzində bütün cəbhə boyu gərgin döyüşlər Azərbaycan Ordusunun üstünlüyü ilə davam edib

Oktyabrın 8-i gününün ikinci yarısından başlayaraq 9-u səhərədək və gecə ərzində bütün cəbhə boyu gərgin döyüşlər davam edib.

Azərbaycan Ordusunun bölmələri mühüm istiqamətlərdə düşmənə atəş zərbələri endirərək onun hərəkət fəaliyyətini tam məhdudlaşdırıb və aktivliyinin qarşısını qətiyyətlə alıb. Görülən tədbirlər nəticəsində düşmən qoşunları arasında idarəetmə və qarşılıqlı əlaqə itib, bölmələri arasında nizamsızlıq yaranıb, şəxsi heyətinin intizamı pozulub, döyüş mövqelərinin tərk edilməsi kütləvi hal alıb.

AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, dünən həyata keçirilən hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusunun atəş zərbəsi nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının qərargah binası dağıdılıb. Nəticədə binada olan 10-cu dağatıcı diviziyanın qərargah rəisi polkovnik Samvel Qriqoryan ağır yaralanıb, alayın artilleriya rəisi polkovnik-leytenant Arman Dermeyan və xeyli sayda hərbi qulluqçu məhv edilib.

Azərbaycan Ordusunun Xankəndi şəhərinə endirdiyi atəş zərbələrindən ağır itkilərə məruz qalan Ermənistan silahlı qüvvələrinin burada yerləşən hərbi hissələrinin şəxsi heyəti təxliyə edilir. Xankəndidə yerləşən hərbi hissələrdən birinin sığınacağına endirilən artilleriya atəşi nəticəsində xeyli sayda hərbi qulluqçu məhv edilib və yaralanıb.



Dünən gün ərzində və ötən gecə ümumilikdə düşmənin 13 ədəd T-72 tankı, 2 ədəd PDM-i, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 2 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 3 ədəd D-30 haubitsa topu, 2 ədəd radar sistemi və xeyli sayda avtomobil texnikası dəqiq atəşlə məhv edilib və sıradan çıxarılıb.

Cəbhənin istiqamətlərindən birində həyata keçirilən əməliyyat nəticəsində Ermənistan silahlı qüvvələrinin 49-cu tank briqadasına məxsus 6 ədəd T-72 tankı tam işlək vəziyyətdə ələ keçirilib.

Bakı, 9 oktyabr,

# Səfir: Ermənistanın qeyri-konstruktiv mövqeyi, təcavüzkar siyasətini davam etdirməsi bugünkü vəziyyətə gətirib çıxarıb



Oktyabrın 8-də Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Fransanın Rusiyadakı səfiri Pyer Levin ilə görüşüb.

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, görüşün keçirilməsində əsas məqsəd Azərbaycanın Dağlıq Qarabağ bölgəsində gedən hərbi əməliyyatların mövcud vəziyyəti ilə bağlı fikir mübadiləsinin aparılması olub.

Polad Bülbüloğlu cəbhədə yaranmış gərginliyi şərh etmək üçün, ilk növbədə, 30 ilə yaxın davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixinə nəzər salınmasının zərurətini qarşı tərəfin diqqətinə çatdırıb. O, həmsöhbətinə münaqişənin hüquqi aspektləri və Ermənistanın ölkəmizə qarşı təcavüzünün nəticələri haqqında ətraflı məlumat verib. Azərbaycan səfiri münaqişənin nizamlanması həvalə edilən ATƏT-in Minsk qrupunun fəaliyyəti, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri, ATƏT-in Lissabon Zirvə görüşü çərçivəsində qəbul edilmiş Yekun sənədin mahiyyəti, danışıqlar prosesində həmsədrlərin iştirakı ilə ortaya qoyulan Madrid prinsipləri, Mayendorf Bəyannaməsi və bu kontekstdə bir sıra digər sənəd və bəyanatlara toxunaraq, onların mövcud olan status-kvonun qəbuledilməzliyi, işğalçı qüvvələrin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasının münaqişənin həllinin əsasını təşkil etdiyini vurğulayıb.

Bununla yanaşı, Polad Bülbüloğlu Ermənistanın danışıqlarda tutduğu qeyri-konstruktiv mövqe, təcavüzkar siyasətini davam etməsi, Azərbaycanın ərazilərinə yeni iddialar irəli sürməsi və ümumilikdə danışıqların mahiyyətini tam şəkildə pozaraq onu mənasız etməsi kimi addımlarının bugünkü yaranmış vəziyyətə gətirib çıxardığını söyləyib.

Fransanın səfiri ölkəsinin münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olduğunu qeyd edib. Həmçinin danışıqların konkret nəticəyə yönəlmiş məsələlər ətrafında aparılmasının əhəmiyyətini anladığını bildirib.

Eyni zamanda, səfir Polad Bülbüloğlu Azərbaycanın uzun müddət ərzində danışıqlar apardığını, daim konstruktiv mövqedən çıxış etdiyini, səbir və təmkinlə ədalətli qərarın qəbul edilməsini gözlədiyini və ölkəmizin ərazi bütövlüyünün heç bir zaman müzakirə predmeti olmadığını diqqətə çatdırıb.

Həmçinin Polad Bülbüloğlu bildirib ki, son iki il ərzində Ermənistanın yeni hakimiyyətinin hərbi ritorikası, ölkəmizə qarşı törətdiyi təxribatlar, eləcə də atəşkəsin pozulması nəticəsində cəbhə xəttindən kənarda yaşayan çox sayda azərbaycanlı mülki şəxslərin öldürülməsi və mülki obyektlərin dağıdılması ona gətirib çıxarıb ki, Azərbaycan xalqı işğala son qoymaq tələbi ilə öz qəti iradəsini ortaya qoyub.

Azərbaycan səfiri Fransa prezidentinin son günlərdə etdiyi məlum çıxışa münasibət bildirən ölkəmizin 50 siyasi partiyasının imzaladığı bəyanatı fransalı həmkarına təqdim edib. Səfirin sözlərinə görə, belə bir bəyanatın qəbul edilməsi onu göstərir ki, müxalifət daxil olmaqla Azərbaycanın bütün siyasi qüvvələri birləşib Fransa prezidentinin ölkəmizə qarşı qəbuledilməz hərəkətlərini pisləyir və bu iki dövlət arasında müsbət olan əlaqələrə ciddi xələl gətirir.

Polad Bülbüloğlu Azərbaycanın təcavüzkar ölkənin sülhə məcbur edilməsi əməliyyatının dayandırılmasının mümkünlüyünü yalnız Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılmasında, bu prosesin həyata keçirilməsi üçün konkret cədvəlin təqdim edilməsində və Minsk qrupuna daxil olan ölkələrin buna qarant çıxmasında gördüyünü bildirib.

Görüşdə qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Fəridə Abdullayeva
AZƏRTAC-ın xüsusi müxbiri
Moskva

# Cəbhənin müxtəlif istiqamətlərində düşmənə ciddi zərbələr vurulub

Oktyabrın 7-si gün ərzində cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlər zamanı Azərbaycan Ordusunun endirdiyi zərbələr nəticəsində düşmən xeyli itki verib.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla xəbər verir ki, qoşunlarımızın atəşi nəticəsində düşmənin 10-dək tankı, 6 ədəd D-20 topu, 1 ədəd "Akasiya" özüyeriyən artilleriya qurğusu, 30-dək avtomobil texnikası və xeyli sayda canlı qüvvəsi məhv edilib.

1-ci və 7-ci alayın müdafiə sahələrində yerləşən bölmələrin bir qrup əsgəri döyüş mövqelərini özbaşına tərk edərək fərarilik ediblər.



Cəbrayıl şəhəri oktyabrın 4-də işğaldan azad edilib

## Azərbaycan bayrağı Cəbrayılın mərkəzində



# Düşmənin artilleriya atəşinə tutduğu Gəncə

Rəşadətli Azərbaycan Ordusunun qətiyyətli və sarsıdıcı zərbələri nəticəsində geri çəkilən və bölmələrimizlə qarşılaşmağa cürət etməyən düşmən yaşayış məntəqələrimizi atəşə tutmaqda davam edir.



AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, oktyabrın 8-də saat 4 radələrində düşmən Gəncə şəhərini yenidən raket atəşinə tutub. Raket zərbələri nəticəsində şəhər ərazisində bir neçə mülki obyektə, yaşayış binasına, 1 avtomobilə ziyan dəyib. Xoşbəxtlikdən ölən və yaralanan olmayıb.

Azərbaycan Ordusu adekvat tədbirlər görüb, düşmənə sarsıdıcı zərbələr endirib.

Düşmənin atdığı artilleriya zərbəsi nəticəsində obyekti zərər görən sahibkar Canpolad Hüseynov deyib ki, həmin vaxt evdə olub: "Xəbər gəldi ki, mağazanın yanına mərmi düşüb. Gəlib gördüm ki, obyekt dağılıb, ciddi ziyan dəyib. Heç də təəssüflənmirəm. Hər şeyimiz əsgərlərimizə qurbandır. Əsas odur ki, salamatçılıq olsun. Allah dövlətimizi, ordumuzu, Ali Baş Komandanımızı qorusun! Biz Prezidentimizə, ordumuza güvənirik. Erməni şərəfsizləri mülki əhalini hədəf seçməklə bizləri qorxutmaq istəyir.



Cəsarətləri çatmır ki, Azərbaycan Ordusu ilə üz-üzə vuruşsunlar. Düşmən bilir ki, bizim ordumuzun qabağında dayana bilməz. Ona görə də dinc sakinləri hədəf alır. Gəncə sakinləri mərddir, dözümlüdür. Ölənə kimi buradayıq. Düşmən bilsin ki, Qarabağ Azərbaycandır, Qarabağ bizimdir".



Digər sahibkar Natiq Quliyev isə deyib ki, düşmən Gəncəni məqsədli şəkildə hədəf alır. Halbuki bu şəhər cəbhədən xeyli uzaqda yerləşir. "Onların Gəncə sakinlərini qorxutmaq niyyəti həyata keçməyəcək. Hər bir sakin öz yurdundadır. Ordumuza, dövlətimizə güvənirik. Azərbaycan Ordusu tezliklə düşmənə layiq olduğu yerini göstərəcək", - deyə o qeyd edib.

Düşmənin artilleriya zərbələri nəticəsində obyektinə ziyan dəyənlərdən biri də Yəhya Mikayılovdur: "Düşmənin dinc sakinləri artilleriya atəşinə tutmağı bizi qorxutmur. Biz öz torpağımızı istəyirik və onun uğrunda da vuruşuruq. Bizim Gəncədən başqa gedəsi yerimiz yoxdur. Gəncədə doğulmuşuq, burada da öləcəyik. Allah ordumuza yar olsun! Cəbhədən gələn qələbə xəbərləri bizi çox sevindirir. Hər gün qələbə xəbərləri gözləyirik".

# Erməni hərbçiləri Bərdədə dinc sakinləri artilleriya atəşinə tutublar – dünya bu vandalizmə susur

Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq, dinc əhaliyə qarşı terror əməllərini davam etdirərək Bərdə şəhərini növbəti dəfə artilleriya atəşinə tutub.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, düşmənin "Toçka-U" kompleksindən atəşi nəticəsində mülki şəxslərə, infrastruktura ciddi ziyan dəyib, yaralananlar var. Şəhərin, kəndlərin ağır artilleriya qurğularından atəşə tutulması erməni barbarlığının sübutudur.













AZƏRBAYCAN VETERANI

# Respublika Veteranlar Təşkilatının rəhbərliyi və əməkdaşları biraylıq maaşlarını Silahlı Qüvvələrə Yardım Fonduna ianə ediblər

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın nümunəvi addımına dəstək olaraq biraylıq əməkhaqqı məbləğində vəsaiti Azərbaycan Respublikası Silahlı Qüvvələrinə Yardım Fonduna ianə edib. Bununla yanaşı, Təşkilatın əməkdaşları da biraylıq maaşlarının bir hissəsini fonda bağışlayıblar.

Respublika Veteranlar Təşkilatının sədri cəbhədə gedən hərbi əməliyyatlar bitənə qədər hər ay maaşını Silahlı Qüvvələrə Yardım Fonduna köçürəcək. O, Vətənin bu çətin günündə cəmiyyətin bütün təbəqələrinin milli orduya dəstək olmaq üçün əlindən gələni etdiyini yüksək qiymətləndirib.



Qeyd edək ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fondu Prezident Heydər Əliyevin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin inkişafı və maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə formalaşıb. Fondun əsasnaməsinə əsasən, Silahlı Qüvvələrin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycan ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər könüllü ödəmələr həyata keçirə bilərlər.

# Baş Prokurorluq: Ermənistan ordusunun dinc əhalini hədəfə alması nəticəsində 41 nəfər həlak olub, 205 nəfər xəsarət alıb

Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən oktyabrın 11-i saat 13:00-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını təqdim edib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 41 nəfər həlak olub, 205 nəfər isə xəsarət alıb. Bundan başqa, Ermənistanın ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 1165 ev, 57 çoxmənzilli yaşayış binası və 146 mülki obyekt yararsız vəziyyətə düşüb.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.




# Azərbaycanın Müdafiə Nazirliyi Ermənistan ordusunun məhv edilmiş döyüş texnikasının siyahısını açıqlayıb

Bu gün ərzində Azərbaycan Ordusu müəyyən olunmuş istiqamətlərdə irəliləyərək yeni dayaq məntəqələrini azad etməklə ərazini düşmən qüvvələrindən təmizləyib. Döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsi, hərbi texnikası və digər döyüş vasitələri məhv edilib.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 27-dən oktyabrın 7-də saat 05.30-dək düşmənin ümumi itkiləri aşağıdakı kimidir:

- 250-dək tank və digər zirehli texnika;
- 270-dək artilleriya, yaylım atəşli raket sistemləri, minaatan;
- 60-dək hava hücumundan müdafiə vasitəsi;
- 11 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi;
- 8 silah-sursat anbarı;
- 150-dək avtomobil texnikası;
- 1 ədəd "S-300" zenit-raket kompleksi.

## Əlimərdan Əliyev: Vətən sevgisi və ruh yüksəkliyi Qələbənin rəhnidir

Azərbaycanın bollu-bərəkətli torpaqları, zəngin sərvətləri əsrlər boyu müxtəlif imperiya qüvvələrinin marağında olub. Onlar bu torpaqları, bu sərvətləri ələ keçirmək üçün bütün vasitələrdən istifadə edib xalqımızı əsarətdə saxlamağa çalışıblar.

Bu sözləri Lənkəran Rayon Müharibə, Əmək və Silahlı Qüvvələri Veteranları Şurasının sədri Əlimərdan Əliyev AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində bildirib.

O deyib: "Sentyabrın 27-də xain ermənilərin növbəti təxribatına cavab olaraq Azərbaycan Ordusunun düşmənə layiqli cavab verməsi Vətən müharibəsinin başlandığını, xalqımıza olmazın əzab-əziyyətlər verənlərdən tarixi intiqamın alınmasının məqamının yetişdiyini dünyaya göstərdi. Vətən sevgisi, ruh yüksəkliyi Qələbənin rəhnidir. İgid əsgərlərimizin Vətən sevgisi, torpaq təəssübkeşliyi, döyüşçü rəşadəti erməni faşistlərini də, onların məkrli havadarlarını da sarsıdıb. Ordumuzun darmadağın etdiyi düşmən əsgərləri canlarını qurtarmaq üçün silahlarını, ölülərini, yaralılarını belə atıb qaçırlar. Ordumuzun bu qələbələri biz lənkəranlıları da hədsiz sevindirir, qələbəyə ruhlandırır. İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun ata yurdu olan Lənkəranda hər bir sakin ordumuzun qələbələrini qürur hissi ilə qarşılayır. Rayonda yüksək siyasi fəallıq hökm sürür. Milli mənsubiyyətindən asılı olmayaraq hər bir sakin Vətən naminə ayaqdadır. Adi vətəndaşlar, müxtəlif peşə sahibləri, xüsusilə gənclər mütəşəkkilliklə Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidmətinin yerli şöbəsinə müraciət edib, könüllü olaraq ordu sıralarına qəbul olunmalarını istəyirlər. Əhalidə böyük ruh yüksəkliyi var. Biz lənkəranlılar torpaqlarımızın azad olunması istiqamətində ölkə rəhbərliyinin qəbul etdiyi bütün qərarları alqışlayır və hər an bu qərarların uğurlu icrasına töhfələrini verməyə hazırıq. İnanırıq ki, rəşadətli ordumuz Vətən torpaqlarını işğaldan azad edib şanlı qələbə qazanacaq".

# Veteran: Qələbə xəbəri Azərbaycan tarixinin ən şanlı səhifələrindən olacaq

İllərdir ki, gözlədiyimiz vaxt çatdı. Azərbaycan Silahlı Qüvvələri Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Dağlıq Qarabağ və ətraf yeddi rayonumuzu erməni işğalçılarından azad edir. Düşmən sarsıdıcı zərbə alır və hər gün döyüş texnikasını, silah-sursatını qoyub qaçır. Qaçaqaça da öz mənfur sifətini göstərir: Yaşayış məntəqələrini atəşə tutur, dinc insanları hədəfə alır.

Bu sözləri AZƏRTAC-ın bölgə müxbirinə Qobustan rayon Veteranlar Şurasının sədri Abdulhəsən Ağayev söyləyib.

"Azərbaycan xalqının işi haqq işidir. Möhtərəm Prezidentimizin dediyi kimi, biz öz torpaqlarımızda döyüşürük, başqasının torpağında yox", – deyən veteran hazırda cəbhədə 4 nəvəsinin iştirak etdiyini söylədi. Vurğuladı ki, özü də qalan 5 oğlu və 3 nəvəsi ilə döyüşlərə



getməyə hazırdır. "Əzəli və əbədi torpaqlarımız uğrunda vuruşmaq, şəhid olmaq bizlər üçün şərəfdir", – deyən veteran tam qələbə xəbərini səbirsizliklə gözlədiyini bildirdi və Azərbaycan tarixinin ən şanlı səhifələrindən olacaq bu xəbərin heç də uzun çəkməyəcəyinə inandığını söylədi.

## Astaradan olan Aprel döyüşçüsü: Azərbaycan Ordusu Vətənimizin torpaqlarını azad etmək uğrunda döyüşür

2010-cu ildə hərbi xidmətimi başa vurduqdan sonra müddətli xidməti davam etdirərək gizir rütbəsində tank komandiri olmuşam.



Bunu Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Astara rayon filialının sədri, Aprel döyüşlərinin iştirakçısı, ikinci qrup müharibə əlili, ehtiyatda olan gizir Orxan Əliyev AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində bildirib.

"Lələtəpə" yüksəkliyinin alınması uğrunda gedən döyüşlərdə yaralandığını xatırladan O.Əliyev deyib: "Dörd gün davam edən Aprel döyüşlərində ordumuz düşmənə öz gücünü göstərdi. Lakin Ermənistan işğalçı siyasətindən əl çəkmir, Azərbaycana qarşı hərbi təxribatını davam etdirir.

Sentyabrın 27-də təcavüzkar Ermənistanın silahlı qüvvələrinin növbəti hərbi təxribatı Azərbaycan Ordusunu cavab tədbirləri görməyə məcbur etdi. Artıq bir neçə kəndimiz düşmənlərdən azad edilib. Bu dəfə Ermənistan ordusu layiqli cəzalarını alacaq. Azərbaycan Ordusu Vətənimizin torpaqlarını azad etmək uğrunda döyüşür. Biz inanırıq ki, üçrəngli Azərbaycan bayrağımız Şuşada, Xankəndidə, zəbt olunmuş digər şəhər və rayonlara dalğalanacaq".

AZƏRBAYCAN VETERANI

14-15 (156-157) 15 oktyabr 2020-ci il

# Almaniya mətbuatında Əhmədiyyə Cəbrayılov haqqında məqalə dərc edilib

Almaniyanın "freitag.de" və "blogs.taz.de" portallarında gənc azərbaycanlı alim Asif Məsimovun müəllifi olduğu "İkinci Dünya müharibəsi zamanı müqavimət hərəkatında iştirak edən azərbaycanlı" sərlövhəli məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə mayın 9-nun hər il Azərbaycanda faşizm üzərində Qələbə Günü kimi qeyd edildiyi, Azərbaycan xalqının da faşizmə qarşı mübarizədə fəal iştirak etdiyi, habelə Qələbəyə böyük töhfə verdiyi bildirilir. Vurğulanır ki, İkinci Dünya müharibəsində 700 minə yaxın azərbaycanlı iştirak edib və onların təqribən yarısı cəbhədən geri qayıtmayıb. Diqqətə çatdırılır ki, 128 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170-dən artıq azərbaycanlı əsgər və zabit müharibə zamanı göstərdikləri rəşadətə görə müxtəlif orden və medallarla mükafatlandırılıb.

Müəllif Azərbaycanın müharibə illərində 75 milyon ton neft istehsal edərək cəbhəyə göndərdiyini, bunun o zaman SSRİ üzrə olan ümumi neft istehsalının dörddəüçündən artığını təşkil etdiyini bildirir. Həmçinin müharibə illərində Azərbaycanda 130-dan çox növdə müxtəlif silah-sursatın istehsal olunaraq cəbhəyə göndərildiyi vurğulanır.

Həmçinin qeyd olunur ki, müharibədə əsir düşən bir çox azərbaycanlı sonradan Avropadakı müqavimət hərəkatlarına qoşularaq partizan mübarizəsində fəal iştirak edib. Onlardan ən çox tanınanları Əhmədiyyə Cəbrayılov və Mehdi Hüseynzadədir.


ACHMEDIJA DSCHEBRAILOW

Aserbaidschaner in der Widerstandsbewegung im Zweiten Weltkrieg

Aserbaidschan nahm in den aggressiven Plänen Hitlerdeutschlands einen besonderen Platz ein.

ASIF MASIMOV

Jedes Jahr begeht Aserbaidschan am 9. Mai den Tag des Sieges über

Məqalədə Əhmədiyyə Cəbrayılovun Fransa Müqavimət Hərəkatında iştirakı və həyatı barədə geniş məlumat verilir. Bildirilir ki, 1920-ci ildə Şəkinin Oxud kəndində anadan olan və 1941-ci ildə könüllü olaraq orduya yazılan Əhmədiyyə Cəbrayılov Kursk ətrafında gedən döyüşlərdə yaralanaraq əsir düşür və Daxau, daha sonra isə Elzas və Lotaringiyada yerləşən əsir düşərgələrinə gətirilir. Düşərgədən qaçmağı bacaran azərbaycanlı "Düma" ləqəbli kapitan Delplankın rəhbərliyi altında Fransa Müqavimət Hərəkatında fəal iştirak edir, çoxsaylı igidliklər göstərir. O, faşistlərin sərəncamında olan çoxsaylı körpülərin, binaların, dəmir yolu xətlərinin partladılmasında, habelə əsirlərin azad olunmasında, o cümlədən 500-dən artıq uşağın əsirlikdən xilas edilməsində xüsusi rəşadət göstərir.

Yazıda bildirilir ki, Əhmədiyyə Cəbrayılov göstərdiyi igidliklərə görə Fransanın Milli Qəhrəmanı adına layiq görülür, bu ölkənin çoxsaylı medal və mükafatları ilə təltif olunur. O, müharibədən sonra partizan mübarizəsi illərindən yaxşı tanıdığı Şarl de Qolun bürosunda çalışır və 1946-cı ildə vətənə dönməyə qərar verir. Qeyd olunur ki, 1966-cı ildə SSRİ-yə səfər edən Şarl de Qol ölkə rəhbərindən müharibə yoldaşı Əhmədiyyə Cəbrayılovla görüşmək istədiyini bildirir. Şarl de Qol səfəri zamanı Əhmədiyyə Cəbrayılovla görüşərək onunla ətraflı söhbət edir və onlar müharibə xatirələrini yada salırlar. Məqalədə diqqətə çatdırılır ki, bu görüş Əhmədiyyə Cəbrayılovun həyatında xüsusi rol oynayır və onun taleyini müsbət istiqamətdə dəyişir.

Həmçinin vurğulanır ki, Əhmədiyyə Cəbrayılovun xatirəsi Azərbaycanda daim böyük ehtiramla yad edilir. Doğulub boya-başa çatdığı Oxud kəndində onun xatirəsinə heykəl qoyulub və yaşadığı ev xatirə muzeyinə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci ildə Əhmədiyyə Cəbrayılovun anadan olmasının 100 illiyi münasibətilə müxtəlif dövlət orqanlarına onun xatirəsinin anılmasına dair tapşırıq verib. Bu tapşırıq əsasında Mədəniyyət Nazirliyi tərəfindən Əhmədiyyə Cəbrayılovun həyat və fəaliyyətindən bəhs edən sənədli film çəkilib.

Vüqar Seyidov
AZƏRTAC-ın xüsusi müxbiri
Berlin

# Rodezdə uyuyan azərbaycanlı döyüşçülərin xatirəsi yad edilib

Azərbaycan dövləti İkinci Dünya müharibəsində doğma Vətəndən uzaqda Avropanın bir neçə ölkəsinin, eləcə də Fransanın azadlığı uğrunda yerli xalqlarla çiyin-çiyinə vuruşaraq həlak olmuş azərbaycanlı döyüşçüləri unutmur, onların xatirəsini daim yad edir.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Fransadakı səfirliyinin diplomatları Aveyron departamentinin Rodez şəhərindəki qəbiristanlıqda dəfn olunmuş azərbaycanlı döyüşçülərin xatirəsini yad ediblər.

Səfirliyimizin diplomatları Rodez şəhər merinin birinci müavini Sarah Vidal ilə birlikdə şəhər qəbiristanlığında Fransa uğrunda həlak olan azərbaycanlı döyüşçülərin xatirəsinə ucaldılmış abidəni və azərbaycanlı əsgər Mişel Hüseynovun məzarını ziyarət edərək üzərinə əklil qoyublar.

İkinci Dünya müharibəsində Fransanın azadlığı uğrunda fransızlarla bərabər mübarizə aparan azərbaycanlı əsgərlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Xatırladaq ki, İkinci Dünya müharibəsində Fransanın Aveyron departamentində yaradılmış düşərgələrdə müxtəlif xalqların nümayəndələrindən ibarət dəstələr hazırlanaraq əməliyyatlarda iştirak üçün yola salınıblar. Faşist əsirliyindən qaçaraq həmin dəstələrə qoşulmuş yüzlərlə azərbaycanlı Fransanın azadlığı uğrunda döyüşlərdə əsl qəhrəmanlıq göstərib. Alman faşistləri ilə qanlı döyüşlərdə həlak olmuş azərbaycanlı qəhrəmanlar Fransa torpağında əbədiyyətə qovuşub-



lar. Onların xatirəsini əbədiləşdirmək məqsədilə Rodez şəhərinin qəbiristanlığında abidə ucaldılıb.

Şəhla Ağalarova
AZƏRTAC-ın xüsusi müxbiri
Rodez

# Fransalı mer: Azərbaycan bugünkü azadlığımıza, İkinci Dünya müharibəsində Qələbəmizə böyük töhfələr verib

İkinci Dünya müharibəsi dövründə azərbaycanlı əsgərlərin də qoşulduğu Kabertat Partizan Hərəkatının Üçüncü Qusar Polkunun yerləşdiyi bu məkanda olanda həm kədərlənir, həm də qürur duyuruq. Ona görə kədərlənirik ki, Fransanın azadlığı uğrunda mübarizə aparan əsgərlər burada həlak olublar. Sevinirik ki, onlar bugünkü azadlığımızı bizə bəxş ediblər.



Bu fikirləri əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun anadan olmasının 100 illiyi münasibətilə təşkil edilmiş tədbirdə iştirak edən Montoban şəhərinin meri Brijit Barej AZƏRTAC-a müsahibəsində söyləyib.

Mer bildirib ki, regionun azadlığı uğrunda döyüşən Əhmədiyyə Cəbrayılovun xatirəsi yerli sakinlər tərəfindən həmişə tutulur. Kabertat Partizan Hərəkatının Üçüncü Qusar Polkunun tərkibində döyüşmüş əsgərlərin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Montoban şəhərində muzey açılıb. Bu muzeydə azərbaycanlılar da daxil olmaqla, Üçüncü Qusar Polkunun bütün əsgərləri haqqında məlumatlar saxlanılır. Fransanın azadlığı uğrunda mübarizə aparan əsgərlərin, xüsusilə də azərbaycanlı döyüşçülərin unudulmaması üçün uşaqlar bu barədə məlumatlandırılmalıdırlar.

"Fransanın azadlığı uğrunda mübarizə aparmış azərbaycanlı əsgərlərin şücaəti haqqında məlumatlıyıq. Azərbaycan faşizm üzərində qələbəyə təkcə insan kapitalı ilə deyil, öz nefti ilə də töhfə verib. İkinci Dünya müharibəsində 300 mindən çox azərbaycanlı əsgər həlak olub. Azərbaycan müharibə zamanı istifadə olunan yanacağın 90 faizini təmin edib", - deyə Brijit Barej bildirib.

O deyib: "Azərbaycan bugünkü azadlığımıza, İkinci Dünya müharibəsində qələbəmizə böyük töhfələr verib. Bunu unutmaq olmaz".

Ölkələrimiz arasındakı münasibətlərə toxunan mer əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirib.

Ş. Ağalarova

# Yüz yaşlı Hüseyn Hümbətovla görüş keçirilib



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Şahbuz Rayon İcra Hakimiyyətinin əməkdaşları Beynəlxalq Ahıllar Günü ərəfəsində rayonun Güney Qışlaq kənd sakini, bu il 100 yaşını qeyd edən Hüseyn Hümbətovla görüşüblər.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, görüşdə muxtar respublikada uzunömürlü, ahıl vətəndaşların sosial vəziyyətinin daha da yaxşılaşdırılmasının daim diqqət mərkəzində saxlanıldığı vurğulanıb.

Bildirilib ki, İkinci Dünya müharibəsi iştirakçısı Hüseyn Hümbətov da dövlət qayğısı ilə əhatə olunub. O, müharibədə iştirakına görə Prezident təqaüdü, həmçinin əmək pensiyası ilə təmin olunub. 2011-ci ildə ona dövlət tərəfindən minik avtomobilinin təqdim olunması da göstərilən yüksək qayğının növbəti təzahürüdür.

Sosial könüllülərin də iştirak etdiyi görüşdə Hüseyn Hümbətova hədiyyələr təqdim olunub.

Hüseyn Hümbətov göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Qeyd edək ki, Hüseyn Hümbətov 1920-ci ilin iyulun 1-də Şahbuz rayonunun Güney Qışlaq kəndində anadan olub. O, 21 yaşında - 1941-ci ilin dekabrında müharibəyə gedib. Müharibədə 3 dəfə yaralanan Hüseyn Hümbətov 14 müxtəlif medalla təltif olunub. Onun 22 nəvəsi, 33 nəticəsi var.

# Voleybol üzrə baş məşqçi müəllim, həm də əmək veteranıdır

*"İdman insanları həm fiziki, həm də mənəvi cəhətdən yüksəldən bir vasitədir".*
***Heydər Əliyev***

Əlizadə Baxış oğlu Niftullayevin adı Şirvan şəhər sakinlərinə, xüsusən də idman sevərlərə yaxşı tanışdır. O, bir çox müxtəlif sahələrdə işləsə də, nəhayət yenidən sevdiyi peşəsinə qayıtmışdır.Əvvəcə onun haqqında bir az ətraflı məlumat vermək yerinə düşərdi:

Ə.Niftullayev 1953-cü il mayın 22-də Salyan rayonunda fəhlə ailəsində dünyaya göz açıb. Ailədə iki bacı, beş qardaş olublar. O, hələ uşaq ikən ailəsi köçərək Əli Bayramlıya (indiki Şirvan şəhəri) gəlir. Əlizadə əvvəlcə 9, sonra 10 nömrəli məktəbdə oxumağa başlayır. Buradakı pedoqoji məktəbi bitirib bədən tərbiyəsi müəllimi ixtisasına yiyələnir.

Təhsil şöbəsi nəzdindəki Uşaq Gənclər İdman məktəbində bir il təlimatçı işlədikdən sonra, 1973-75-ci illərdə hərb xidmətdə olur. Qayıdandan sonra 10 nömrəli tam orta məktəbə bədən tərbiyəsi müəllimi işləməyə göndərilir. Burada peşəsi üzrə 8 il işlədikdən sonra müəyyən səbəblər üzündən iş yerini dəyişməli olur.Yeddi il tikintidə usta kimi çalışır.Daha sonra şəhər Avtovağzalında dispedçer vəzifəsinə təyin olunur. Bir neçə il burada da vicdanla çalışdıqdan sonra yenidən UGİM-nə voleybol üzrə məşqçi müəllim işləməyə dəvət alır.

Söylədimiz bütün bunlar onun çətin və şərəfli həyat yolunun bir hissəsidir. Hələ yeniyetmə yaşlarından idmanın voleybol, əl topu və baksetbol növləri ilə məşğul olarkən çevikliyi ilə yoldaşlarından seçilir, komandalarının qalib gəlməsində, şəhər və zona yarışlarında onun zəhməti çox olur. Əlizadə müəllim düz 14 il əl topu və baksetbol yığma komandasının üzvü kimi çalışaraq, şəhərin idman şərəfini ləyaqətlə qoruyur. Qardaşı Alim müəllim də tanınmış voleybolçudur. Şəhər 9 nömrəli tam orta məktəbdə bədən tərbiyəsi müəllimidir.

Ə.Niftullayev hazırda Uşaq Gənclər İdman və Şahmat məktəbində voleybol bölməsində baş məşqçi müəllimdir. 12 və 14 yaşlı 2 qrupla məşğul olur. Söhbət əsnasında o bildirir ki, şagirdlərindən Məmmədli Məhəmməd və Murad Mahmudov ən yaxşı voleybolçulardandır.

Əmək veteranı Əlizadə müəllim həm də Respublika Veteranlar Təşkilatının üzvü kimi ictimai işlərdə də fərqlənir.

Mehriban ailə başçısıdır. 2 qız, 1 oğul tərbiyə edib böyütmüşdür. Qızları tibb işçisi, oğlu Vüsal isə neftçidir. Biz də Ə.Niftullayevə uzun ömür, idman sahəsində uğurlar arzu edirik.



Ulu öndərimizin söylədiyi kimi idman doğurdan da insanları həm fiziki, həm də mənəvi cəhətdən yüksəldən bir vasitədir. Biz bunu Əlizadə müəllimin timsalında da görürük.

Vaqif Qayıbov,
Şirvan şəhər Veteranlar Təşkilatının sədri.
Musaxan Heydərli,
Respublika Jurnalistlər Birliyinin üzvü.

# Gözə nur verən loğman Lidiya Kurdikova



O, 1920-ci ildə Rusiya Federasiyasının Mordova vilayətinin İnsar şəhərində anadan olmuşdur. İki yaşında ikən ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüşdür.

Onun gənclik illəri heç də asan olmur. 1941-ci ilin Böyük Vətən müharibəsi başlayır. Gənc qız Lidiya Kurdikova orta məktəbi başa vurub Azərbaycan Dövlət Tibb İnstitutunda oxuyur. 1942-ci ildə ali məktəbi qurtarıb könüllü olaraq cəbhəyə-döyüş bölgəsinə yollanır. İlk cəbhə yolu Şimali Qafqazdan başlayır. O, yorulmaq bilmədən top mərmisi və güllə yağışı altında yaralı əsgər və zabitlərə tibbi yardım etmiş, onları ölümün pəncəsindən qurtarmışdır. Daim döyüşçülərin yanında olan Lidiya bir neçə dəfə yüngül güllə yarası alsa da, cəbhə yoldaşlarından ayrılmamış, onları qələbəyə ruhlandırmışdır. Lakin ağır döyüşlərin birində onun bəxti gətirmir, düşmən mərmisindən ağır kontuziya alır. Tibb kapitanı Lidiya 1944-cü ilin axırlarında, qələbə gününə az qalmış ordudan tərxis olunaraq yenidən Bakıya qayıdır. Burada tam sağaldıqdan sonra həkimlik fəaliyyətinə başlayır. Az sonra nazirlik onu Əli Bayramlı rayonunun (indiki Şirvan şəhəri) Vladimirovka (hazırkı Nizami kənd) kəndinə işləməyə göndərir. Yazar Mehriban Əliyevanın Əli Bayramlının aynası sayılan yerli "İşıq" qəzetində L.Kurdikova haqqında yazdığı məqalədə oxuyuruq: "Onun sonrakı ömür yolu Əli Bayramlı ilə bağlı olmuşdur. O, Vladimirovka kəndində tibb sanitar məntəqəsinin müdiri, sonra poliklinikada okulist, göz xəstəxanasının müdiri işləyir. Bu elə illər idi ki, Muğan zonasında traxoma, qlakoma xəstəlikləri tüğyan edirdi. Lidiya Kurdikova və yoldaşları kəndbəkənd evləri gəzir, gecə-gündüz nə olduğunu bilmədən adamlara kömək göstərirdilər. Elə Lidiya kimi həkimlərin ağır zəhmətləri hesabına bu xəstəliklərin kökü kəsildi."

Lidiya Kurdikova 1945-ci ildə özünə ailə həyatı da qurur. Azərbaycanımızın qədim Nuxa şəhərindən olan və Şirvanda işləyən Adamov Vladimir Sergeyevlə evlənir. Sergey də İkinci Dünya Müharibəsi iştirakçısı idi. Baş çavuş rütbəsində xidmət edib, döyüşmüşdür. Bu evlikdən onların 3 qız övladı: İrina, Tatyana və Olqa dünyaya gəlir. Olqa və Tatyana bacıları əkiz doğulurlar. 43 il birgə ömür sürdükdən sonra Sergey Adamov 1988-ci ildə vəfat edir. Həyat yoldaşının ölümü Lidiyanı sarsıtsa da, o , ruhdan düşmür. İnsanların sağlamlığı keşiyində durur, övlad və nəvələrinin qayğısına qalır. Təqaüd yaşı çatsa da müdriyyət onu buraxmaq istəmir. Yenidən çağırıb müqavilə əsasında göz həkimi vəzifəsində qalıb işləməsini xahiş edirlər.

O, ömrünün 60 ilindən çoxunu sevimli, peşəsinə həsr etmişdir. Neçə-neçə tibb bacısı və gənc həkimlərə hamilik etmiş, dəyərli məsləhətlər vermiş, bildiklərini onlardan əsirgəməmişdir.

Əmək və müharibə veteranı, Azərbaycan və SSRİ səhiyyə əlaçısı, təcrübəli oftalmoloq L.Kurdikovanın əməyi də kölgədə qalmayıb: "Şərəf nişanı", "Qırmızı Əmək bayrağı" ordenləri, 5-dən artıq medal və döş nişanları və qiymətli hədiyyələrlə mükafatlandırılmışdır. 2000-ci ildə 80 yaşında səhhəti ilə əlaqədar doğma kollektivi ilə vidalaşan Lidiya 2 il sonra, 2002-ci ilin 4 sentyabrında dünyasını dəyişmişdir. Onu tanıyanlar da çox yaxşı bilirlər ki, Lidiya həkim heç vaxt pul və şöhrət dalınca qaçmayıb. Həkim şairimiz Abbas Səhhətin yazdığı kimi "Sən mükafatını insanlığa xidmətdə ara!"

Şirvan şəhər Veteranlar Təşkilatı

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri cənab General-polkovnik Tofiq Ağahüseynov və Təşkilatın Rəyasət Heyəti Mingəçevir şəhər Veteranlar Təşkilatının sədri
***Ələm Rza oğlu Məmmədovun***
vəfatından kədərləndiyini bildirir və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**"Azərbaycan Veteranı" qəzetinin elektron ünvanına (az.veteran@mail.ru) məqalələrinizi göndərməklə bizimlə əməkdaşlıq edə bilərsiniz. Qeyd edək ki, "Azərbaycan Veteranı" qəzetində dərc olunan məqalələrdəki faktlara və məlumatlara görə müəllif məsuliyyət daşıyır. Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*
*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:*** *Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:*** *Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34*
***Əlaqə telefonu: 012 440-21-08***
***e-mail:*** *az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi - 3486***
***Dövlət qeydiyyat tarixi - 19.10.2011***

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1200*